# Düşmən yuxusuna yurdumuz girsə,
# O an duyuq düşüb onu vurmasaq,
# Düşmən zamanında haqlana bilməz.



*Vaqif Bayatlı Odər*



## *Azərbaycanı Babəkləşdirməyə cəhd edən Ənvər Məmmədxanlıya*

Əsl döyüşçüyə səngəri qəfəs!
Düşmən səngərin al, sarı yarama,
döyüş o səngərdə döyüşdü ancaq,
gedib qayıtmasa aldığım nəfəs
nəfəsi ölümdən geri almağa
ölümün üstünə yürüşdü ancaq.

Qılınc gülümsəsə, təndə can gülsə,
əsir torpaqları alıb durmasaq,
heç bir türkün gözü bağlana bilməz,
düşmən yuxusuna yurdumuz girsə,
o an duyuq düşüb onu vurmasaq
düşmən zamanında haqlana bilməz.

Həfəsi doğmalar, səsi doğmalar
heç vaxt deyilməyən nəğmələr deyib
heç vaxt alınmayan yurdlar aldırar,
qanadlı nəğmələr, atlı nəğmələr
ölən əskəri də ata qaldırar,
ölən atları da qanadlandırar.

Ölüm də bir uçuş, əvvəlcə yerə,
sonra yer altına, sonra göylərə.
Ölüm - həm də yürüş hər türk oğluna!
- Öldün, türk?! Qalx, göyün
boş qalan andı,
Onsuz da yer sənin! Qalx göy uğruna!
Türkün göy yürüşü başlanan andı.